# İqtisadiyyatın şaxələndirilməsi diqqət mərkəzindədir

***Prezident İlham Əliyev son illərdə sosial-iqtisadi çağırışları nəzərə alaraq ölkədə islahatları daha da sürətləndirib. Bu islahatlar məzmununa görə məqsədyönlü və konkret strateji hədəfə doğru hesablanıb. Genişmiqyaslı yenilənmələr respublikada yüksək dayanıqlı və inklüziv iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşviqi üçün əlverişli zəmin yaradıb.***



Yeri gəlmişkən, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkar-dövlət, hökumət-biznes münasibətlərinin inkişaf etdirilməsi kimi məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində 2003-cü ildən indiyədək Azərbaycan iqtisadiyyatı 3,4 dəfə, sənaye 3,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,8 dəfə artıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən ardıcıl tədbirlər nəticəsində iqtisadiyyatın neft-qaz amilindən asılılığı getdikcə azalıb. Son illər dünyaya özünün yeni inkişaf modelini təqdim etməyi bacaran Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilbəil sürətlənib. Bu da respublikamızda qeyri-neft sahələrinin inkişafına müsbət təsir göstərib.

Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin diqqətindən də kənarda qalmır və yüksək qiymətləndirilir.

Beynəlxalq reytinq agentliklərinin proqnozları təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olur və bütün bunlar isə dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Fikrimizin təsdiqi üçün Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan iqtisadiyyatı üzrə proqnozlarına diqqət yetirək. Belə ki, BVF-nin Azərbaycan hökuməti ilə mayın 25-dən iyunun 7-dək IV maddə üzrə aparılmış məsləhətləşmələrin yekunlarına dair bəyanatında bu il ölkəmizin nominal qeyri-neft ümumdaxili məhsulunun (ÜDM) dəyərinin 68,5 milyard manata çatacağı bildirilib. Bu isə BVF-nin 2021-ci il üzrə proqnozu ilə müqayisədə 19,3 faiz çoxdur.

Bu maliyyə təsisatının proqnozuna görə, 2023-cü ildə nominal qeyri-neft ÜDM-i 77,7 milyard manat, 2024-cü ildə 86,1 milyard manat, 2025-ci ildə isə 93,6 milyard manat olacaq.

BVF 2026-cı ildə nominal ÜDM-in 100,8 milyard manat, 2027-ci ildə isə 108,5 milyard manat olacağını da proqnozlaşdırıb. Adı çəkilən bəyanatda, həmçinin cari il Azərbaycanın nominal ümumdaxili məhsulunun (ÜDM) dəyərinin 122,9 milyard manat təşkil edəcəyi vurğulanıb.

Fond 2023-cü ildə nominal ÜDM 126,3 milyard manat, 2024-cü ildə 129,3 milyard manat, 2025-ci ildə isə 133,3 milyard manat olacağını da proqnozlaşdırıb.

BVF-nin proqnozunda 2028-ci ilə kimi Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatlarınən 8,275 milyard dollara qədər artacağı da diqqətə çatdırılıb. Qeyd edək ki, bu ilin 30 iyun tarixinə AMB-nin valyuta ehtiyatları 7,371 milyard dollar (I yarımillikdə artım 4,2 faiz) olub.

Beləliklə, BVF-nin proqnozlarına görə, 2022-ci ilin yekunları üzrə AMB-nin valyuta ehtiyatları 7,275 milyard (2021-ci ilə nisbətən 2,8 faiz çox) təşkil edəcək. Vurğulanıb ki, 2023-2027-ci illərdə AMB-nin valyuta ehtiyatlarının illik artımı 200 milyon məbləğində olacaq.

***(ardı 5-ci səhifədə)***

# İqtisadiyyatın şaxələndirilməsi diqqət mərkəzindədir

*(əvvəli 1-ci səhifədə)*

BVF 2022-ci ildə Azərbaycanda ÜDM-in artım proqnozunu 2,8 faizdən 3,8 faizədək artırıb. Xatırladaq ki, sözügedən maliyyə qurumu 2023-cü il üçün Azərbaycanda ÜDM-in artım proqnozunu 2,6 faiz, 2024-2027-ci illərdə isə 2,5 faiz səviyyəsində proqnozlaşdırıb.

Bildirilib ki, 2022-ci ildə qeyri-neft sektorunda artım 5,5 faiz (aprel proqnozu – 4 faiz), 2023-cü ildə 3,7 faiz, 2024-2027-ci illərdə illik 3,5 faiz təşkil edəcək.

Fond Azərbaycanda inflyasiyanın 12,3 faizədək (2021-ci ildə 6,7 faiz) sürətlənəcəyini, 2023-cü ildə 9,5 faizədək, 2024-ci ildə 7 faizədək, 2025-ci ildə 5 faizədək, 2026-2027-ci illərdə isə 4 faizədək azalacağını proqnozlaşdırır.

"2022-ci ildə ÜDM-in 3,8 faiz artacağı, ortamüddətli perspektivdə isə bir qədər azalacağı proqnozlaşdırılır. Proqnozlara görə, 2022-ci ildə inflyasiya yüksək ərzaq və xammal qiymətləri, tədarük zəncirindəki pozulmalar da daxil olmaqla, əlverişsiz xarici amillərin təsiri ilə yüksək səviyyədə qalacaq, 2023-cü ildən etibarən inflyasiya templəri azalacaq. İnflyasiyanın 2024-cü ilin sonunadək Mərkəzi Bankın hədəf diapazonunun yuxarı həddinə (4 ± 2 faiz) qaytarılmasını dəstəkləmək üçün pul-kredit siyasətinin əlavə sərtləşdirilməsi və orta səviyyədə saxlanılması tələb olunacaq", - bəyanatda vurğulanıb.

Bundan əlavə, BVF 2022-ci ildə Azərbaycanın tədiyə balansının cari əməliyyatlar hesabının profisitini ÜDM-in 24,6 faizi (2021-ci ildə 15,2 faizi), 2023-cü ildə 21,6 faizi, 2024-cü ildə 21 faizi, 2025-ci ildə 16,3 faizi, 2026-cı ildə 10,7 faizi, 2027-ci ildə 9,1 faizi səviyyəsində proqnozlaşdırır.

BVF-nin Azərbaycan hökuməti ilə mayın 25-dən iyunun 7-dək IV maddə üzrə aparılmış məsləhətləşmələrin yekunlarına dair bəyanatında, eyni zamanda, bildirilir ki, 2028-ci ilədək Dövlət Neft Fondunun (ARDNF) aktivləri 82,076 milyard dollara qədər artacaq. Ötən ilin yekunları üzrə ARDNF-in aktivlərinin 45,025 milyard dollar olduğunu nəzərə alsaq, bu, 2022-2027-ci illərdə adıçəkilən fondun aktivlərinin 82,3 faiz artması deməkdir.

BVF-nin proqnozlarına görə, 2022-ci ilin yekunları üzrə ARDNF-nin aktivləri 53,426 milyard dollara (2021-ci illə müqayisədə artım 18,7 faiz), 2023-cü ilin yekunları üzrə 62,168 milyard dollara, 2024-cü ilin yekunları üzrə isə 70,742 milyard dollara çatacaq.

ARDNF-in aktivləri 2025-ci il üzrə 76,58 milyard, 2026-cı ildə 79,84 milyard, 2027-ci ildə 82,076 milyard dollar olacaq.

"Fitch Solutions"nin hesabatında isə 2022-ci ilin birinci yarısı üzrə icmalında manatın məzənnəsinin sabit qalacağı proqnozlaşdırılır. Bu amil mütəxəssislərin fikrincə, respublikada inflyasiyanın nisbətən aşağı səviyyədə olmasına müsbət təsir göstərir. Professor Vüsal Qasımlıya görə, iqtisadiyyatda hər bir şeyin öz qiyməti mövcuddur: "Ümumiyyətlə, iqtisadi artımın da öz qiyməti vardır. İqtisadi artımı həyata keçirən ölkə xarici borclanmaya gedə bilər. Azərbaycanda xarici borcun ÜDM-ə nisbəti 12,5 faizdir. Bu rəqəm orta dünya göstəricilərindən 7-8 dəfə aşağıdır".

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin araşdırmasında göstərilir ki, əgər Azərbaycanda manatın sabitliyi qorunmasaydı, ev təsərrüfatları və biznes ziyan çəkər, gözləntilər pisləşər, proqnoz vermək qabiliyyəti aşağı düşərdi. Azərbaycan ikinci yola getməmək üçün manatın sabitliyini qoruyur. Professor Vüsal Qasımlının fikrincə Azərbaycanda iqtisadi artım daha keyfiyyətlidir, o, devalvasiyanın və inflyasiyanın, eləcə də milli təhlükəsizliyin hesabına deyil, daha çox iqtisadiyyatın səmərəli qurulması, düzgün istiqamətləndirilməsi, gəlirlərin daha düzgün bölünməsi və dövlət maliyyəsinin daha yaxşı idarə olunması sayəsində baş verir: "Azərbaycan Prezidentinin apardığı islahatlar burada daha səmərəli rol oynayır. Ona görə də Azərbaycan bu gün digər dövlətlərlə müqayisə edildikdə daha rahat və əmin görünür. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan artıq MDB məkanında liderdir. Bu gün Azərbaycanın valyuta ehtiyatları 54 milyard ABŞ dollarını keçmişdir. Gözləntilər ondan ibarətdir ki, ilin sonunadək bu rəqəm 60 milyard dollara yaxınlaşacaq. Beləliklə yeni bir tarixi rekord əldə olunacaq. Azərbaycan valyuta ehtiyatlarına görə də regional liderdir. Və bu valyuta ehtiyatlarının vacib elementidir".

Sonda xatırladaq ki, "Fitch" agentliyi də Azərbaycanda iqtisadi artım proqnozunu açıqlayıb. Qurum cari il üzrə Azərbaycanda real ümumdaxili məhsulun (ÜDM) artımı 3,48 faiz təşkil edəcəyini qeyd edib.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 15 iyul.- S.1;5.